Müalicə-sağlamlıq turizmin sosial-iqtisadi əhəmiyyəti, ölkənin dinamik inkişafında və iqtisadiyyatında roludur (Bilalov, Gülalıyev, 2015: 45). Müalicə turizmin iqtisadi rolu ölkəyə mənfəət, gəlir gətirməsi adambaşına düşən milli gəliri artırması, regionların inkişafında rol oynaması, sosial rolu isə yeni iş yerlərinin yaradılması, məşğulluğun təmin edilməsidir.

*Ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafı üçün təbii ehtiyatlar baxımından zəngin potensiala malikdir. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıq və suları, Lənkəranın, Gədəbəyin mineral suları, Masallının İsti suyu və ən önəmlisi də işğaldan azad etdiyimiz ərazilərin təbii imkanları.*

Azərbaycanda müalicə turizmi əsasən kurort-sanatoriya xidmətləri üzrə ixtisaslaşmışdır. Buna görə də ölkəmizə gələn turistlər bu sahədə ixtisaslaşan müəssisələrə səfər edirlər. Ölkəmizə gələn xarici vətəndaşlar daha çox Naftalan neftinin müalicəvi xüsusiyyətlərindən faydalanmağa üstünlük verirlər (Əlirzayev, Aslanova, 2006: 30).

Azərbaycana gələn xarici turistlərin və xaricə gedən Azərbaycan vətəndaşlarnın sayının dəyişmə dinamikası azalan və artan templə qeyri-stabil meyillərlə dəyişir. Dəyişmə qrafiki aşağıdakı cədvəldə əks olunmuşdur.

**Cədvəl 1. Azərbaycana müalicə-sağlamlıq məqsədilə gələnlərin dinamikası (min nəfər)**

| İllər | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| **Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı-cəmi** | **2849,6** | **3170,4** | **795,7** | **791,8** |
| Turizm məqsədilə | 2605,3 | 2863,5 | 519,4 | 461,7 |
| Sağlamlıq turizmi | 63,1 | 63,9 | 10,4 | 8,3 |
| **Xaricə gedən Azərbaycan vətəndaşlarının sayı** | **4908,1** | **5567,70** | **1164,6** | **974,50** |
| Turizm məqsədilə | 4096,70 | 4347,30 | 746,60 | 557,90 |
| Sağlamlıq turizmi | 288,60 | 268,80 | 42,90 | 31,20 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi, 2022**

İllər üzrə ölkəmizə gələn turistlərin və xaricə gedən Azərbaycan vətəndaşlarının sayına nəzər yetirdikdə müəyyən azalmaların olduğu müşahidə edilir. 2020-ci ildə Covid-19 pandemiyasının baş verməsi turizm sektoruna ciddi şəkildə təsir etmişdir. Belə ki, 2019-cu ildə ölkəmizə gələn əcnəbi vətəndaşların sayı 3 milyon 170 min nəfər olduğu halda, 2020-ci ildə 795 min 700 nəfərə düşmüşdür. 2019-cu ildə ölkəyə 63 min 900 nəfər sağlamlıq məqsədilə gəlmişdir. 2020-ci ildə bu say 10 min 400 nəfər, 2021-ci ildə isə 8 min 300 nəfər olmuşdur. Koronovirus pandemiyası ilə əlaqədar olaraq həyata keçirilən qapanmalar səbəbindən turist səfərlərinin sayında ciddi şəkildə azalmalar baş vermişdir (4).

2019-cu ildə xaricə gedən vətəndaşlarımızın sayı 5 milyon 568 min nəfər olmuşdur. 2020-ci ildə bu say 1 milyon 165 min nəfər, 2021-ci ildə isə 975 min nəfər olmuşdur. Sağlamlıq məqsədilə xaricə gedənlərin sayı 2019-cu ildə 269 min nəfər, 2020 və 2021-ci illərdə isə uyğun olaraq, 43 min və 31 min nəfər olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022: 100).

**Qrafik 1. Azərbaycana ən çox səyahət edən xarici turistin gəldiyi 5 ölkə, 2019-2021**




**Mənbə: Qrafik statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir**

2021-ci ildə ölkəmizə gələn xarici turistlərin 84%-i 5 ölkənin – Rusiya, Gürcüstan, Türkiyə, İran və Ukraynanın payına düşür. 2020-ci ilin göstəricilərinə nəzər saldıqda, Gürcüstan istisna olmaqla, digər 4 ölkənin gəlmə sayında artım müşahidə olunur. 2020-ci ildə Rusiya (258.3 min) gəlmə sayında liderliyini qorusa da, Gürcüstan (62.6 min) 4-cü pilləyə qədər geriləmişdir. Türkiyə (197.9 min) və İran (125.3min) müvafiq olaraq 2 və 3-cü pillədə qərarlaşmışdır. Yuxarıda qeyd olunan ölkələr içərisində artım tempinin yüksəkliyinə görə İran fərqlənir. Belə ki, gələnlərin sayı 2020/2021-ci illə müqayisədə 72% artsa da, 2019/2021-ci ildəki göstəricilərdən 51% geridə qalmışdır. Müvafiq olaraq, Rusiya, Türkiyə və Ukraynadan gələnlərin sayında 2020/2021-ci illə müqayisədə uyğun olaraq 15%, 23% və 3% artım, 2019/2021-ci illə müqayisədə isə 72%, 38% və 71% azalma müşahidə olunmuşdur (Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, 2021: 7).

**Qrafik 2. Səfərlərin məqsədi, 2021**




**Mənbə: Qrafik statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə ölkədaxili səyahət etmiş yerli turistlərin sayı 2020-ci illə müqayisədə 167% artaraq 3.4 milyona çatmışdır. Ölkədaxili həyata keçirilən səyahətlərin sayı isə 2020-ci illə müqayisədə 152% artmışdır. Turistlərin məqsədə görə bölgüsü 2020-ci illə oxşarlıq təşkil edir. Belə ki, Qrafik 2.2-də qeyd edildiyi kimi, yerli turistlərin əsas hissəsi dost-qohum məqsədilə etdiyi ölkədaxili səfərlər həaya keçirmişdir(49%). Daha sonra 24% turist istirahət, 11% işgüzar, 8% müalicə-sağlamlıq və yerdə qalan 8% isə alış-veriş, dini və digər məqsədlərlə ölkədaxili səyahətlər həyata keçirilmişdir.

Ölkəmizə müalicə-sağlamlıq məqsədilə gələnlər daha çox Rusiya, Qazaxıstan, Ukrayna, Türkiyə, Özbəkistan, Belarus, İran vətəndaşları üstünlük təşkil edir. Bu da həmin ölkə vətəndaşlarının Azərbaycanın müalicə-sağlamlıq turizmi haqqında daha çox informasiyaya sahib olmaları ilə əlaqədardır. Bundan başqa burada ənənəvi sanatoriya xidmətlərinə üstünlük verməlari də əsas rol oynayır (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2021: 88).

**Qrafik 3. Səyahətlərin şəhərlər üzrə bölgüsü, 2021**




**Mənbə: Qrafik statistik göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Qrafik 3-dən göründüyü kimi, səyahətlərin məqsədlərə görə bölgüsündə Bakı, Gəncə, Xaçmaz və Abşeron istisna olmaqla, səyahətlərin təqribən yarıdan çoxu dost-qohum ziyarəti məqsədilə edilmişdir. Müalicə-sağlamlıq xidmətləri məqsədilə Bakı(16%) və Sumqayıt (16%) şəhərlərinə səyahətlər həyata keçirilmişdir.

MDB ölkələrindən gələn turistlər daha çox Naftalanda yerləşən sanatoriyalara üstünlük verirlər. Naftalan şəhərində yüksək, orta və aşağı kateqoriyalı müalicə-sağlamlıq müəssisələrinin olması turistlərin seçim şansını artırır.

Respublikamızda müalicə turizminin inkişafına mane olan səbəblər: texnologiyanın bahalı olması, səhiyyə xidmətlərinin keyfiyyətinin yüksək olmaması, qiymətlərin isə göstərilən xidmətə nisbətən baha olması, xaricdə təhsil almış mütəxəssislərin paytaxtda cəmləşməsi, nəqliyyat vasitələrində olan problemlər və s. (Guseyn, 2017: 37-38).

2020-ci ildə şanlı ordumuzun Böyük Qələbəsi sayəsində düşməndən azad edilmiş torpaqlarımızda, qarşıdakı dövrlərdə iqtisadiyyatın və turizmin inkişaf etdiriləcəyi şübhə doğrultmur. Çünki həmin ərazilərdə turizm potensialı kifayət qədər yüksəkdir. Hazırda işğaldan azad edilmiş torpaqlarımızda yenidənqurma işləri həyata keçirlir. Şübhəsiz, yeni iqtisadi rayonlarda inkişaf daha məhsuldar və dinamik olacaqdır.

## Nəticə

Öz potensialını maksimum dərəcədə istifadə etməyə çalışan Azərbaycan, müalicə turizminin inkişafında bir sıra tədbirlər həyata keçirir və bu sahədəki fəaliyyətlərini daha da artırmaq üçün çalışır. Müalicə sağlamlıq turizmi bütün dünyada olduğu kimi Azərbaycanda da getdikcə inkişaf etməkdə olan sektora çevrilmişdir. Zaman keçdikcə daha çox insan turizmin bu növündən faydalanır. Bu sektorun daha da inkişaf etməsi dövlət və özəl sektor arasında əməkdaşlığı tələb edir. Gələcək inkişaflar Azərbaycan iqtisadiyyatına böyük töhfə verə bilər. Ölkənin sahib olduğu potensialın səmərəli şəkildə istifadə olunması nəticəsində müalicə sağlamlıq turizmi aparıcı sektorlardan biri olacaqdır.

## Ədəbiyyat

1. Crooks, V., Kingsbury, P., Snyder, J., Johnston, R. (2010). What is know about the patient’s experience of medical tourism? A scoping review; BMC Health Services Research, 266 p.
2. Bilalov, B., Gülalıyev, Ç. (2015). Turizmin əsasları. Bakı: QHT , 496 s.
3. Əlirzayev, Ə., Aslanova, S. (2006). Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı: Adiloğlu, 164 s.
4. https://www.stat.gov.az/source/healthcare/
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2022). Azərbaycanda Turizm, 100 s.
6. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2021). İllik Turzim Statistikası, 28 s.
7. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2021). Azərbaycanda sağlamlıq turizmi - cari vəziyyət və inkişaf perspektivləri, 184 s.
8. Guseyn, A. (2017). Vliyaniye lechebnogo turizma na ekonomiku Azerbaydzhana. Servis v Rossii i za rubezhom, T.11, № 6 (076), 202 s.

Göndərilib: 29.01.2023 Qəbul edilib: 11.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/21/47-50

**Ayxan Zeynalov**
Bakı Dövlət Universiteti
magistrant
ayxan.zeynalov.00@mail.ru

# MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASINDA XARİCİ İNVESTİSİYA QOYULUŞLARININ PRİORİTET İSTİQAMƏTLƏRİ

**Xülasə**

Müasir dövrdə yalnız daxili imkanlarla iqtisadi inkişafa nail olmaq mümkünsüzdür. Ölkəyə xarici investisiyanın cəlb edilməsi iqtisadiyyatın inkişafında çox vacibdir. Son illərin təcrübəsi göstərir ki, Azərbaycanda neft gəlirlərinin artması qeyri-neft sahələrinin inkişaf etdirilməsi sahəsində uzunmüddətli tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Qeyri-neft sahəsində investisiya qoyuluşlarının həcmi artaraq iqtisadiyyatın canlanmasına səbəb olmuşdur. Uğurla həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində milli iqtisadiyyatımızda olduqca mühüm dəyişiklər baş vermişdir.

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsində investisyaların cəlb edilməsi və onlardan səmərəli istifadə olunması vacib amillərdən biridir. Deməli, Azərbaycanda investisiya cəlb edilməsi üzrə müəyyən bir modelin formalaşdırılması və xarici investisiya qoyuluşlarının prioritet istiqamətlərinin müəyənləşdirilməsi aktual məsələyə çevrilmişdir.

***Açar sözlər:*** *Azərbaycan iqtisadiyyatı, xarici investisiya, prioritet istiqamətlər, sahibkarlıq, iqtisadiyyat, vergi siyasəti, rüsum, gömrük*

**Aykhan Zeynalov**
Baku State University
master student
ayxan.zeynalov.00@mail.ru

## Priority directions of foreign investments in the formation of the national economy

**Abstract**

In modern times, it is impossible to achieve economic development only with domestic opportunities. Attracting foreign investment to the country is very important in the development of the economy. The experience of recent years shows that the increase in oil revenues in Azerbaijan has created conditions for the implementation of long-term measures in the field of development of non-oil fields. The volume of investments in the non-oil sector has increased and led to the revival of the economy. As a result of successfully implemented large-scale socio-economic reforms, significant changes have taken place in our national economy.

Attraction of investments and their effective use is one of the important factors in the development of the country's economy. So, the formation of a certain model of attracting investment in Azerbaijan and the definition of priority directions of foreign investment has become an urgent issue.

***Keywords:*** *economy of Azerbaijan, foreign investment, priority directions, entrepreneurship, economy, tax policy, duty, customs*

## Giriş

Hər bir ölkədə investisiya siyasətini, onun prioritet istiqamətlərini, o cümlədən regionların investisiya təminatını dövlət müəyyənləşdirir və stimullaşdırır. Bütün iqtisadi münasibətlər tənzimləndiyi kimi investisiya fəaliyyəti də tənzimlənir. Bir çox hallarda xarici investisiyanın cəlb edilməsi investisiya qoyuluşlarının maliyyə mənbələrinin artmasına səbəb olur. Bununla yanaşı xarici investisiya axınları həm də yeni texnologiyanın, idarəetmə metodlarının, istehsalın təşkili sahəsində yeni biliklərin ölkəyə cəlb edilməsi üsulu kimi çıxış edir. Qeyd etməliyik ki, əlverişli

investisiya mühitinə dövlətin sahibkarlığı stimullaşdırılması siyasətinin stabil olması, güzəştli vergi rejiminin mövcudluğu, etibarlı operativ bank sistemi, informasiya texnologiyası və infrastruktur vasitələri ilə təminatlılıq dərəcəsi, süni yoxlama və müdaxilənin yoxluğu, göstərilməsi üçün firma şəbəkəsinin inkişaf faktorları, intelektual mülkiyyətin möhkəm müdafiə sistemi, təsərrüfat fəaliyyəti prosedurasının sadələşdirilməsi və yaradıcılıq azadlığı müsbət təsir göstərir (Əzizova, 2012: 19).

Bazar iqtisadiyyatı şəraitində xarici investisiyaların cəlb olunması, ilk növbədə dünya bazarında Azərbaycan müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, ixracın quruluşunun təkmilləşdirilməsi, idxalın quruluşuna daha çevik yanaşması və bu istiqamətdə dövlət tərəfindən mühüm tədbirlərin həyata keçirilmə zəruriliyi müəyyən edilir. Çünki məhz dövlətin yeritdiyi iqtisadi siyasət iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsində mühüm rolu olan investisiya qoyuluşlarının başlıca prioritet istiqamətlərini müəyyən edir.

Azərbaycan iqtisadiyyatına xarici investisiyanın cəlb olunması 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" adlanan ARDNŞ ilə bir sıra xarici ölkələrin neft kompaniyaları arasında bağlanmış müqavilələrdən sonra başlamış və bu proses getdikcə geniş vüsət almışdır. Bu hər şeydən əvvəl Azərbaycanda uğurla həyata keçirilən daxili və xarici siyasətin nəticəsində bərqərar olmuş sabitlik xarici sərmayədarların respublikamıza marağını getdikcə artırmışdır. Azərbaycan Respublikasının milli iqtisadiyyata xarici sərmayələrin cəlb olunması bir tərəfdən xarici iqtisadi siyasətin yenidən qurulmasının və eləcə də ölkədə gedən bütöv bir iqtisadi sistemin – radikal iqtisadi islahatların, struktur dəyişikliklərinin həyata keçirilməsinin başlıca istiqamətlərini təşkil edir.

Xarici investisiya fəaliyyətini həyata keçirmək istəyən şirkət müxtəlif məhdudiyyətlərlə qarşılaşa bilər. Ən geniş yayılmış məhdudiyyət ölkəyə gətirilən bəzi əmtələrə (texnologiya və s.) qoyulan vergi və rüsumlardır. Ona görə də belə məhdudiyyətlərin təsirinin yüngülləşdirilməsi məqsədi ilə müvafiq beynəlxalq təşkilatlar mütamadi olaraq, yaranmış şəraitə adekvat tənzimləyici tədbirlər hazırlayırlar. Məs., müasir dövrdə Azərbaycan Respublikasında gömrük orqanlarının fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, prosedurlarının daha da sadələşdirilməsi və şəffaflaşdırılması məqsədilə Beynəlxalq Valyuta Fondu, Ümumdünya Gömrük Təşkilatı ilə birgə proqram həyata keçirilməkdədir. Eyni zamanda daxili bazarda təkmil rəqabət mühitinin inkişaf etdirilməsi, təbii inhisarçıların tariflərinin, habelə dövlət tərəfindən müəyyənləşdirilən qiymətlərin müntəzəm şəkildə tənzimlənməsi məqsədilə ölkə Prezidentinin qərarına əsasən və Nazirlər Kabinetinin 31 yanvar 2002-cil tarixli qərarı ilə "Azərbaycan Respublikasının Tarif Şurası" yaradılmışdır (İsayev, 2011: 64).

Milli iqtisadiyyata investisiyaların cəlb olunması üçün xarici şirkətlər və beynəlxalq təşkilatlarla səmərəli və davamlı investisiya əməkdaşlığı üçün lazım olan hüquqi, institutsional və iqtisadi mühitin formalaşdırılması hər bir hökümətin qarşısında duran həlli vacib məsələlərindən hesab olunur. Bu məqsədlə dövlət müvafiq hüquqi və normativ baza formalaşdırır, institutlar yaradır və rəqabətli biznes mühitinə dəstək verir. Azərbaycan Respublikasında xarici investorlara verilən dövlət təminatları ilk növbədə milli qanunvericiliklə tənzimlənir. Bu məqsədlə hələ 15 yanvar 1992-ci ildə "Xarici investisiyaların qorunması haqqında" və 13 yanvar 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur (Namazova, 2014: 158). Lakin, Azərbaycan Respublikasında xarici investorlara verilən təminatlar milli qanunvericiliklə yanaşı ölkəmizin ratifikasiya etdiyi çoxtərəfli müqavilələrlə də tənzimlənir. Xarici dövlətlərlə imzalanmış qarşılıqlı müdafiə və təşviqə dair ikitərəfli sazişlər də xarici investorların əlavə müdafiəsi xarakteri daşıyır. Hazırda Azərbaycan Respublikası ilə dünyanın müxtəlif ölkələri arasında 30-dək bu tip müqavilələr imzalanmışdır, Azərbaycan Respublikası höküməti ilə dünyanın 53 ölkəsinin hökümətləri arasında müştərək və ya hökümətlərarası dövlət komissiyası yaradılmışdır. MDB dövlətləri çərçivəsində hətta ikitərəfli müqavilələrdən savayı kapital qoyuluşlarının qarşılıqlı müdafisəi və stimullaşdırılmasına dair 2 çoxtərəli konvesiya da imzalanmışdır. Bu sənədlərə 24 dekabr 1993-cü ildən qüvvədə olan investisiya sahəsində əməkdaşlığa dair sazişi və 28 mart 1997-ci ildə imzalanmış investorların müdafiəsi barədə konvensiyanı aid etmək olar (Zeynalov, 2012: 48).

Xarici investisiya qoyuluşlarının cəlb olunması üzrə dövlətin yerinə yetirdiyi tədbirlər ilkin olaraq əlverişli investisiya mühitinin formalaşdırılmasına, innovasiya potensialının artırılmasına və investisiya risklərinin minimuma endirilməsinə istiqamətləndirilməlidir.

Qeyd etmək lazımdır ki, qlobal miqyasda əlverişli investisiya mühitinin formalaşdırılması üçün aşağıdakı istiqamətlərdə tədbirlər reallaşdırılmalıdır:

- investisiya qoyuluşları üçün əlverişli institusional mühitin formalaşdırılması;
- investisiya fəaliyyəti üçün yüksək tələblərə cavab verən infrastrukturun formalaşdırılması;
- xarici investisiya qoyuluşlarının vergi stimullaşdırılması sisteminin mexanizminin formalaşdırılması;
- xarici investisiya qoyuluşlarının cəlb olunması və dəstəklənməsinin maliyyə mexanizminin formalaşdırılması;
- investisiya fəaliyyəti əsasında istehsal edilmiş məhsula tələbin artırılması;
- xarici sərmayə əsasında fəaliyyət göstərən müəssisənin təchizatçılarla təmin olunması;
- xarici investisiya qoyuluşları üçün cəlbedici tarif şərtlərinin formalaşdırılması;
- investisiya layihələrinin ixtisaslı kadrlarla təmin edilməsi.

Cənab Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" xarici investisiya qoyuluşlarının da cəlb edilməsinin prioritet qəbul edilmişdir. 2025-ci ilədək olan uzunmüddətli baxışda investisiya mühitinin hüquqi tənzimlənməsi məsələsinə geniş yer verilmiş, bu sferada mövcud olan əngəllərin aradan qaldırılması əhəmiyyətlitədbirlər görüləcəkdir. Belə ki, ölkəmizdə yüksək texnologiyalara, bazarlara və maliyyə resurslarına bərabərhüquqlu çıxış imkanlarını təmin edən rəqabətqabiliyyətli mühiti formalaşdırılacaqdır (5).

Azərbaycan Respublikasının regional qovşaq kimi mövqeyinin möhkəmləndirilməsi üçün infrastruktur sahələrinə irihəcmli investisiya qoyuluşlarının cəlb edilməsi davam etdiriləcəkdir. 2025-ci ildə ölkə iqtisadiyyatı dəmir yollarının Gürcüstan, Türkiyə və İranın dəmiryol şəbəkəsi vasitəsi ilə Bakı-Tbilisi-Qars və Astara-Astara dəmiryol layihələri vasitəsi ilə birləşdirilməsindən, eləcə də Xəzər dənizi hövzəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilməsindən faydalanacaqdır (Əhmədov, Hüseyn, 2011: 123). Ölkəmizin şaxələndirilmiş nəqliyyat potensialı ölkədən ixracatın artırılması üçün şərait yaradacaq, ümumilikdə isə iqtisadi xərclərə qənaət olunmasına şərait yaradacaqdır. Bununla yanaşı, inkişaf etdirilmiş nəqliyyat infrastrukturu ölkənin bütün regionlarının daha yaxşı inteqrasiyasına zəmin formalaşdırmaqla, bölgələrdə biznesin inkişaf etməsinə, xarici investisiyaların cəlb olunmasına əlavə imkanlar açacaqdır.

Ticarət əlaqələrinin asanlaşdırılması və keyfiyyətin dəqiq dəyərləndirilməsi üçün yerli müəssisələrdə qlobal standartlar və sertifikatlar tətbiq olunacaqdır. 2025-ci ilədək qlobal standartlara uyğunlaşma Azərbaycandan ixrac olunan malları rəqabət qabiliyyətli hala gətirəcəkdir. Beynəlxalq sertifikatlardan daha çox istifadə etmək etibarlı keyfiyyət ölçüsü formalaşdıraraq yerli istehlak səviyyəsini artıracaqdır. Azərbaycan Respubliasına coğrafi nöqteyi-nəzərdən ən yaxın iki regional bazarda - Avrasiya İttifaqı və Avropa İttifaqında ÜTT qaydaları əsas qəbul edildiyindən, ölkəmizdə də bu qaydalara müvafiq əmtəə və xidmətlərlə qeyri-neft ixracatının həcmi yüksəldiləcəkdir. Yerli müəssisələr öz əmtəə və xidmətlərin keyfiyyətini artırmaqla yerli istehlakçıların davamlı olaraq yüksələn keyfiyyət tələbatına cavab verəcəkdir. Bunun nəticəsində "Made in Azerbaijan" brendi qlobal bazarlarda keyfiyyət göstəricisinə çevriləcəkdir. "Made in Azerbaijan" brendinin dünyada tanıdılması yönündə yerinə yetiriləcək işlərin effektivliyini yüksəltmək məqsədi ilə ölkədə istehsal edilən məhsulların və bu məhsulların istehsalçıları haqqında informasiyaları özündə birləşdirən internet portalı formalaşdırılacaqdır. Həmin internet portalında informasiyaların üç dildə yerləşdirilməsi istifadəçi əhatəsini artırmaqla, yerli məhsulların tanıdılması nöqteyindən daha da səmərəli olacaqdır. Bunun nəticəsində, istehsalçı-istehlakçı arasında münasibətlər asanlaşacaq, rəqabətədavamlı milli məhsulların ixracatının həcmini yüksəldəcəkdir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı prioritet kimi qəbul olunmuşdur. 2012-ci ildə qoyulmuş investisiyaların 11,7 milyard manatı, yəni bütün investisiyaların 76 faizi məhz bu istiqamətdə istifadə edilmişdir. Azərbaycan Respublikasının investisiya siyasəti ölkədə bütün təsərrüfat subyektlərinə əlverişli şəraitin yaradılması istiqamətində məqsədyönlü kompleks tədbirlərdən ibarətdir. Bu tədbirlər iqtisadiyyatın çoxşaxəli və hərtərəfli inkişafına, investisiya aktivliyinin və istehsalın səmərəliliyinin artırılmasına, eləcə də sosial məsələlərin həllinə yönəlmişdir (7). Belə siyasi kursun əsas məqsədi

Azərbaycanın rəqabətədavamlı iqtisadiyyatının inkişafını, müvafiq strateji planının həyata keçirilməsini, ölkə iqtisadiyyatının inkişaf etmiş ölkələr səviyyəsinə çıxarılmasını və dayanıqlılığını təmin etməkdən ibarətdir. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun hərtərəfli inkişaf etdirilməsi, emal sənayesinin dominantlığına nail olunması, yeni emal və istehsal müəssisələrinin işə salınması həm respublikanın daxili tələbatlarını maksimum ödəməyə, həm də ixrac potensialını yaratmağa xidmət edir. Bu səviyyə isə öz növbəsində qeyri-neft sektorunda hərtərəfli inkişafa və mövcud potensialın dövriyyəyə cəlb edilməsi üçün, o cümlədən texniki və texnoloji biliklərə yüksək tələbi yaratmaqla elm və təhsilin inkişafı üçün geniş imkanlar açır (Əliyev, 2008: 49).

İnvestisiya əməkdaşlığının yaradılmasında “yeni investisiya formalarına” xüsusi fikir verilməlidir. Onlar praktiki olaraq texniki kömək şəklində kapitalın ixracı formasının bir növüdür. Belə formalara qarışıq sahibkarlıq, hər cür mümkün ola bilən texniki köməyin növləri kimi “xidmət” kontraktların bağlanması və s. aid etmək olar. Son nəticədə xarici kapital milli iqtisadiyyatın inkişafına, onun elmi-texniki səviyyəsinə təsir göstərməsinə baxmayaraq, “yeni investisiya formalarının” tətbiqinə qəbul edən ölkələr tərəfindən çox ehtiyatla yanaşılmalıdır. Çünki o, gözlənilməz nəticələrə gətirib çıxara bilər (Bağırov, 2015: 159-163).

Azərbaycanda investisiya əməkdaşlığının potensial imkanlarının səmərəliliyi mütərəqqi forma olan lizinqdən istifadə edildikdə daha geniş açıla bilər. Son illərdə bu forma inkişaf etmiş ölkələrdə geniş yayılmışdır. O, həmin ölkələrdə investisiya fəaliyyətinin əsas mexanizmlərindən birinə çevrilmişdir. “Yeni investisiya formalarının” dünyada tətbiqi təcrübəsinin çox cəhətliliyinin öyrənilməsi respublika iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiya prosesini gücləndirəcəkdir.

## Nəticə

Azərbaycanda xarici investisiya qoyuluşlarının reallaşdırılması və formalaşmasında dövlətin rolu investisiya fəaliyyətinin həyata keçirlməsi üçün əlverişli imkan və münbit şəraitin təmin edilməsindən ibarətdir. İnvestisiya qoyuluşlarının reallaşması da öz növbəsində ümumilikdə dövlətin uğurlu iqtisadi fəaliyyətinin nəticəsi hesab olunur. Bu səbəbdən də qeyd etmək lazımdır ki, dövlətin iqtisadi, sosial və elmi-texniki inkişafına istiqamətləndirilmiş investisiya siyasəti hər bir zaman ölkənin əsas nəzər nöqtəsində saxlanılmalıdır.

Eyni zamanda ölkəmizin müasir investisiya siyasətinin əsas xüsusiyyəti iqtisadiyyatın neftdən asılılığının tamamilə azaldılması və neftdən gələn gəlirdən qeyri-neft sektoruna investisiya şəklində yönləndirilməsi yolu ilə bu sektorun yüksək inkişafına nail olmaqdan ibarətdir. Buna isə mövcud istehsal obyektlərinə innovasion investisiyalar yönəltməklə onların istehsal gücünü artırmaq və elmi texniki tərəqqinin son nailiyyətlərindən istifadə etməklə yeni istehsal müəssisələri yaratmaqla nail olmaq mümkündür.

## Ədəbiyyat

1. Əzizova, G. (2012). “Dövlətin investisiya-innovasiya siyasəti”. Bakı.
2. İsayev, S. (2011). “İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi”. Bakı.
3. Namazova, C. (2014). “İnvestisiyalar”. Bakı.
4. Zeynalov, V. (2012). “Azərbaycanda investisiya siyasəti”. Bakı.
5. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” 6 dekabr 2016-cı il.
6. Əhmədov, M., Hüseyn, A. (2011). Dövlətin iqtisadi siyasəti. Bakı.
7. https://president.az/az/articles/view/16373
8. Əliyev, Q. (2008). “İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi”. Bakı.
9. Bağırov, F. (2015). “Xarici investisiyalardan səmərəli istifadənin prioritetləri” Azərbaycanın aqrar elmi jurnalı, №3 (238). Bakı.

Göndərilib: 22.01.2023 Qəbul edilib: 12.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/21/51-56

**Ruzanə Süleymanova**
Azərbaycan Dövlət Aqrar Universiteti
ruzanesuleymanova@gmail.com
**Məlaikə Xudaverdiyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
melaikexudaverdiyeva1982@gmail.com

# TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNTERAKTİV TEXNOLOGİYALARIN ROLU

**Xülasə**

Məqalədə təhsilin keyfiyyətini artırılmasında interaktiv texnologiyalardan istifadə edilən bəzi məsələlərə toxunulur. Yeni şəraitdə təhsilə yeni yanaşmalar qarşıda duran problemlər və onların həlli yolları nəzərdən keçirilir. Təhsilin keyfiyyətinin artırılması üçün bir sıra əhəmiyyətli üsullardan danışılır. Şagirdlərə yanaşma tərzi müzakirə olunur. Təhsilin keyfiyyətinin artırılmasının əlverişli yollarından biri də müəllimin yeni pedaqoji texnologiyalardan istifadə etməsidir. İnteraktiv təlim dərsdə yaranan, meydana çıxan şagirdlər arası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəlim-şagird birliyini nəzərdə tutur. İnteraktiv metodlar isə təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq vəkeyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir. Tədrisdə yeni pedaqoji texnologiyaların işlənib hazırlanması və bu texnologiyaların tətbiqi əsas problemlərdən biridir. Dərsdə müasir təlim metodlarından istifadə bu gün müasir dərsin xarakterik xüsusiyyətləri hesab edilir.

***Açar sözlər:*** *interaktiv texnologiyalar, təhsil texnologiyaları, konstruktiv təlim texnologiyası, təhsilin humanitarlaşdırılması, təhsildə yeniliklər*

**Ruzane Suleymanova**
Azerbaijan State Agrarian University
ruzanesuleymanova@gmail.com
**Melaike Xudaverdiyeva**
Azerbaijan State Agrarian University
melaikexudaverdiyeva1982@gmail.com

## The role of Interactive Technologies in Enhancing the Quality of Education

**Abstract**

The article touches on some issues of using interactive technologies to improve the quality of education. In the new conditions, new approaches to education, the problems ahead and their solutions are considered. A number of important methods for improving the quality of education are discussed. One of the convenient ways to improve the quality of education is the teacher's use of new pedagogical technologies. Interactive training involves learning communication and cooperation between students, teacher – student unity, which occurs in class. Interactive methods are the methods, styles, works, approaches, tools that implement the students' acquisition of learning and understanding, skills and qualities in the training process. Development of new pedagogical technologies and application of these technologies in the teaching is one of the main problems. The use of modern teaching methods in the lesson is considered the characteristic features of the modern lesson today.

***Keywords***: *interactive technologies, educational technologies, constructive learning technology, humanization of education, innovations in education*

## Giriş

Bu gün dünyada gedən qloballaşma həyatın bir çox sahələrinə öz təsirini göstərir. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etmək başlıca vəzifə kimi qarşıda durur. Bu problemin həllini pedaqoq alimlər, əsasən, aşağıdakı istiqamətlərdə görürlər (Mehrabov, 2001).

- *təhsilin məzmununun kökündən dəyişdirilməsində;*
- *yeni pedaqoji texnologiyaların işlənib hazırlanmasında;*
- *təhsilin humanitarlaşdırılmasında;*
- *pedaqoji kadrların yenidən hazırlanmasında;*
- *təlim prosesinin fərdiləşdirilməsində və s.*

Təhsilin keyfiyyətinin artırılmasının əlverişli yollarından biri müəllimin yeni pedaqoji texnologiyalardan istifadə etməsindədir. Müəllim tədris prosesini elə təşkil etməlidir ki, şagird müstəqil fəaliyyət vərdişlərinə yiyələnsin, özünün bilik və bacariqlarını obyektiv qiymətləndirməyi öyrənsin, müəyyən məqsədlə qarşısına hər hansı məsələ qoyaraq onun həllini tapsın. Müəllim materialı dərindən bilməli, hər bir dərsə yaradıcı yanaşmalı, mütəmadi olaraq yeni texnoloji üsullar axtarmalı, şagirdin psixologiyasını öyrənməlidir.

Pedaqoji ədəbiyyatlarda təhsil texnologiyalarının təhlili göstərir ki, yeni pedaqoji texnologiyalar xarakterik əlamətlərə malikdir. Müəllimin bələdçiliyi ilə dərsdə problemi şagirdlərin özlərini nhəll etməsi pedaqoji texnologiyaların əsas ideyasını təşkil edir. Bələdçi-fasilitator tədqiqatların aparılması istiqamətində şagirdlərə şərait yaradır, istiqamət verir. Təlim prosesini əvvəlcədən layihələmdirir, təlim prosesində şagird şəxsiyyətinin inkişaf etdirilməsi zamanı təlim məqsədlərini əsaslı şəkildə həyata keçirir.

Müəllim ümumi proqram üzrə dərsə hazırlığı yüksək səviyyədə olmalıdır. Məlum həqiqətdir ki, təhsilə hər dövrün özünə məxsus pedaqoji fikri olmuşdur. İndi təlim tərbiyyə prosesində şəxsiyyət anlamı daha demokratik şəkildə dərk edilir. Şagirdin subyekt olması müasir dövrün çox səslənən və bəzən mübahisələrə səbəb olan məsələlərindəndir.

Müasir pedaqoji texnologiyaların hamısının məzmununu, əsasən, interaktivliyinə görə fərqləndirmək olar. İnteraktivlik təlim prosesi müəllim və şagird arasında için gedişindən-mövzudan, şərhdən, dialoqdan, rollu oyundan, həmin anda meydana çıxan yanaşma, izah, dialoq və s-dən asılıdır. Yəni bu tərz əvvəldən planlaşdırılmır, işin – təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox şagirdin müstəqilliyi, müdaxiləsi ilə baş verir. Digər tətəfdən, interaktivlik şagirdlərin özləri arasındada ola bilər. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən öyrənənlər və öyrədən eyni hüquqlu mövqedə dayanırlar, Təbii ki, müəllim öyrədən olaraq bələdçi, fasilitator, məsləhətçi funksiyasını yerinə yetirir: şagirdlərin işlərinə müdaxilə etmədənproblemləri qoyur, istiqamət verir, nəzarət edir, axtarış istiqamətlərini hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar özləri birlikdə -öz aralarında tədqiqat aparır,diskussiya apararaq işləyirlər.

Hər bir şagirdin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Qrupdakı zəif şagirdlər də müzakirədə fəal iştiraka qoşulurlar; məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində bir-birini dinləməyə alışırlar, hər bir təlim tapşırığının həlli vasitəsilə onlar idraki axtarıcılıq taktikalarını təkmilləşdirir, təlimdə öz müvəffəqiyyət hər kəs özü qurur.

İnteraktiv təlim dərsdə yaranan,meydana çıxan şagirdlər arası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəlim-şagird birliyini nəzərdə tutur. İnteraktiv metodlar isə təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq vəkeyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir.

Əsasında öyrədən (təlimçi) deyil, öyrənən duran konstruktivizm nəzəriyyəsinə istinadən öyrənən cism və hadisələrlə bilavasitə əlaqədə olur və bunu nəticəsində onların əlamətlərini qavrayır, qarşıdakı problemi həll eddir (Kralin, 1998). O, fərdi şəkildə işləməyə və təşəbbüs nümayiş etdirməyə həvəsləndirilir, öyrənən əqli təhlilin məhsulu olan öyrənmə prosesində yeni bilikləri ilkin biliklərlə əlaqələndirərək ən yaxşı nəticəyə nail ola bilir. Bu nəzəriyyənin nümayəndələri xüsusən qeyd edirlər ki, öyrənmə prosesinə mühit və öyrənənin fikir və munasibəti

təsir edir. Konstruktivist təlim insan beyni üzrə son zamanlar aparılan tədqiqat və öyrənmə prosesinin necə baş verməsi haqqında olan biliklər üzərində qurulmuşdur.

Şagirdlərin təliminin texnologiya ilə əlaqələndirilməsi 1999-cu ildə Şaron Adams və Meri Böms təeəfindən "Texnologiyalar üzrə yardım proqramı " çərçivəsində "Təhsilin İnkişafı üzrə Suasvest Labaratoriyası "–ndatexnologiyaların inteqrasiyasına əsaslanan bu nəzəriyyəyə istinad edərək şəxsiyyətyönümlü və konstruktivist siniflərin yaradılması ilə işlənib hazırlanmışdır. 2005-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyi və Mədəd Azərbaycan Humanitar Təşkilatının (RELİEF) birgə layihəsi olan Müəllimlərin Peşəkarlıq Səviyyəsinin Təkmilləşdirilməsi təlimlərində respublika müəllimləri mərhələ-mərhələ Konstruktivlik, interaktiv təlimlərlə, müasir pedaqoji texnologiyalarla yaxından tanış edilirlər. Bu təlimlərin praktik əhəmiyyəti çox böyükdür.

Tədrisdə yeni pedaqoji texnologiyaların işlənib hazırlanması və bu texnologiyaların tətbiqi əsas problemlərdən biridir. Çünki dərsdə müasir təlim metodlarından istifadə bu gün müasir dərsin xarakterik xüsusiyyətlərindəndir. Həyat məktəb, müəllim şagirdlər qarşısında yeni tələblər qoyduğuna görə bu məsələlərin üzərinə təkrar-təkrar qayıtmaq lazım gəlir. Müasir dərs elmi-texniki tərəqqinin tələblərini təmin edən, inkişaf etməkdə olan müstəqil dövlətimizdə cəmiyyətin məqsədlərinə cavab verən və psixoloji-pedaqoji elmlərin nailiyyətlərini nəzərə alan dərsdir. Müasir dərsdə qavranılmış biliklər, yeni biliklərin mənimsənilməsində bir komponent kimi həyata keçirilməli,dərsdə biliklə fəaliyyətin dialektik əlaqəsi və asılılığı, sualların obyektiv həqiqətdən doğması və düçündürücü olması, şagirdlərin yaradıcı təfəkkürünün fərqləndirici xüsusiyyətinin mütləq nəzərə alınması, şagirdlərin idrak fəaliyyətindəki əsas götürülməlidir.

Müasir dərs dedikdə, öyrətmə prosesində müəllimin göstərdiyi pedaqoji məharət, ustalıq nəzərdə tutulur. Müəllim sinifdə işgüzar şərait yaradıb şagirdlərin müstəqil mühakimələrinə geniş meydan açırsa, hər mövzunun xarakterinə uyğun priomlardan, çeviklik və interaktivliyin təmin edilməsindən, problemli təlimdən istifadə edirsə, deməli o, dərsi müasir tələblər əsasında qura bilir.

Müasir dərsdə uşaqlarda yaradıcı təxəyyülü inkişaf etdirməyə vvə idraki müstəqilliyə xidmət göstərən problemli suallara, düşündürücü məsələlərə xüsusi yer verilməlidir. Belə dərs şagirdlərdə müəyyən bacarıq və vərdişləri formalaşdırır. Müasir dərs müəllimin dərsə ciddi hazırlaşmasını tələb edir. Buna görə də müəllim hansı priomlardan necə və nə zaman istifadə edəcəyini qabaqcadan müəyyənləşdirməli, sinifdə deyəcəyi informasiyanın strukturunu qabaqcadan düşünməli, mövzuya dair yardımçı fakt və hadisələri əsas məsələnin həllinə yönəltməyi bacarmalı, elmi-texniki yeniliklərdən, düvrüün mühim ictimai-siyasi hadisələrindən baş açmalı, biliyini müntəzəm olaraq artirmalıdır. Müasir dərs uşaqların dünyagörüşünü inkişaf etdirməli, onların əqidəcə mətnləşməsinə şərait yaratmalı, dərsdə əyanilikdən və müxtəlif mənbələrdən alınmış əlavə məlumatlarla onların dərketmə qabiliyyətlərini artırmalıdır (Bayramov, 1990).

Təlimlə tərbiyyənin vəhdəti də müasir dərsin qarşısında qoyulmuş tələbdir. Dərs şagirdlərin mənəvi inkişafına, əxlaqca təkmilləşməsinə,vətənpərvərlik, insanpərvərlik, əməksevərlik ruhunda yetişməsinə xidmət göstərməlidir. Müasir dərs milli təhsilin yaradılmasına yönəlməlidir. Bunun əsasını diferensiallaşdırma, demokratikləşdirmə, humanistləşdirmə,inteqrasiya, fərdiləşdirmə və s. Prinsiolər təşkil etməlidir (Əlizadə, 2005).

Məlumdur ki, ənənəvi dərsdə, əsasən, müəllim aparıcı mövqeyə malik olur, daha çox özü danışır, təhlili də, ümumiləşdirməni dəbir qayda olaraq özü aparır, şagirdlər isə bir çox hallarda passiv müşahidəçi kimi müəllimi dinləyir, onun dediklərini qəbul etməyə məcbur olurdu. Təlim prosesi bir növ avtoritar xarakter daşıyırdı. Müasir dərsin təşkilində isə sadalanan bütün bu nöqsanları interaktiv (fəal) təlim metodlarının tətbiqi vasitəsi ilə, fənlər üzrə kurikulumun əsas funksiyasını yerinə yetirməklə aradan qaldırmaq olar. Kurikulumun əsas funksiyaları-fənlər arasındakı əlaqə vvə ardıcıllığın təmin edilməsi, fənnin məzmununun cəmiyyətin tələbatına uyğun olaraq daim təkmilləşdirilməsi və yeniləşdirilməsi, dərsdə təlim texnologiyalarının çevikliyi və interaktivvliyinin təmin olunması, nəticəyönümlü kurikulumların tətbiq edilməsi, təlim mühitinin təhsil fəaliyyətinin səmərəliliyinin, təlimi inkişaf etdirici və qabaqcıl xarakterini, bilik, bacarıq və vərdişlərin təhlil pillələri üzrə konsentrik prisip əsasında müəyyənləşdirilməsinin təmin edilməsidir (Kərimov, 2007).

Ənənəvi təlim sisteminin ən mürəkkəb problemlərindən biri istifadə olunan pedaqoji texnologiyaların konservatizmi, qeyri-çevik olmasıdır. Müasir informasiya-kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq, onları həm öyrənənə çatdırmaq, həm də mənimsətmək əslində qeyri-mümkün işə çevrilir. Əgər əvvəllər bilikləri əldə etmək üçün şagirdi iki əsas bili mənbəyi (müəllim və dərslik) qane edirdisə, bu gün həmin mənbələr çoxsaylı məlumat mənbələri ilə müqayisədə uduzur. Bu səbəbdən müsir təlimin başlıca vəzifələrindən biri öyrənməyi öyrətməkdir, yəni şagirdləri bilikləri müstəqil əldə etməyə yiyələndirməkdir. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi,onların şəxsiyyətə, onun tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitində təlim böyük səmərə verə bilər. Eyni zamanda şəxsiyyətyönümlü belə tədris prosesi inkişaf proseslərinin keyfiyyətinə də təsir edəcək: idraki və sosial fəallığı artırmaqla, şəxsiyyətin dəyərlərini və vərdişlərini formalaşdıracaq. Bu tələblərin nəzərə alınması məhz məhsuldar , yaradıcı təfəkkürü və yeni biliklərə müstəqil yiyələnmə üsullarını özündə birləşdirən fəal (interaktiv) təlim texnologiyalarına üstünlük verməyi təmamilə zəruri edir. Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini artırmaq məqsədi ilə güclü vasitə ola bilər. Bu metod şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal (interaktiv) təlim həm məzmunun öyrəmilməsinin, həm də tətbiqinin səmərəliliyini artırır və çagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Azərbaycanda müasir təlim metodlarının tətbiqi layihəsi artıq həyata keçirilir. Son illərdə respublikamızda fəal dərslərin hazırlanması, planlaşdırılması və onların həyata keçirilməsi üçün vacib olan ilkin təcrübə toplanmış, müəllimlərdə əsas bilik, bacvarıq və vərdişlər formalaşmışdır. Keçirilən monitorinqlər göstərdi ki, fəal (interaktiv) təlim metodlarını həyata keçirərkən müəllimlər bir çox problemlərlə rastlaşırlar. Belə ki, yenilikləri həyata keçirərkən təcrübənin yayılmasına və mübadiləsinə böyük ehtiyac duyurlar. Müəllimlərin yenilikləri həyata keçirmələrində təcrübələri artdıqca və bu işə daha çox müəllim cəlb olunduqca, yeni metodiki tövsiyyələrə, tədris materiallarına və digər metodiki məlumat mənbələrinə ehtiyacları artır. Fəal (interaktiv) təlim üzrə müəllimlər üçün məlumatın və müasir tədris təcrübəsini yayılması tətbiqi problemlərin aradan qaldırılması üçün ən səmərəli və məqsədəuyğun yollardan biridir (Kərimov, Əhmədova, Varella, Reyli, 2005).

Son illər respublikamızda interaktiv təlim metodlarının mənimsənilərək iş prosesinə tətbiqi sahəsində müəyyən nəticələr əldə olunmuşdur. Tədris prosesində fəal-interaktiv təlim texnologiyalarının tətbiqi dərslərin səmərəliyini yüksəldən ən vacib şərtlərdəndir.

Bu gün müəllimlər qarşısında yeni pedaqoji texnologiyalara yiyələnmək kimi ciddi vəzifələr durur. Pedaqoji texnologiyalar çoxdur və onların hamısının öz məqsədi və istiqaməti vardır. Təhsil islahatının əsas məqsədlərindən biri ənənəvi yaddaş məktəbini təfəkkür məktəbinə çevirməkdir. Təfəkkür isə konstruktivizm nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyəyə görə, sinifdə müəllim yox, şagird əsas götürülür. Kostruktor sözü özü də yaradıcı öyrənmə mənasını verir. Nəzəriyyə şüurla bağlı olan psixologiyadan, təhsilə dair tədqiqatlardan, nevrologiya elmindən qidalanır. Təhsilə fərdi yanaşmanı üstün tutur. Konstuktivizm nəzəriyyəsini əsaslandığı sosial və koqnitiv (idraki) fərziyyələr öyrənmədə mühüm rol oynayır və öyrənmə nəzəriyyəsi kimi qəbul olunub. Əqlin inkişafında mühüm rol oynadığından beynin məşqidir və bu nəzəriyyədə özünü doğruldur. Mövzunu anlayıb başa düşmək,onu biliyə mevirərək tapşırıqları həll etmək üçün güclü təsəvvürə malik olmaq, xəyalında canlandırdığın obyekt haqqında mühakimə yürütmək, faktları dəqiqləşdirib mövzuya tətbiq etmək lazımdır (Mehrabov, Abbasov, Zeynalov, Həsənov, 2006).

Konstruktiv təlim texnologiyası özündə interaktiv texnologiyanı da ehtiva etdiyi üçün burada fərdi yaradıcılıq ictimailəşərək genişlənir və daha da dərin çalarlar yaradır (Kralin, 1998).

Təlim prosesində elə qarşılıqlı münasibətlər yaradılması nəzərdə tutulur ki, burada hər iki tərəf qarşıya qoyulmuş məqsədlərə çata bilsin. Əməkdaşlığın əsasında bu prosesi iştirakçıları arasında pozitiv münasibətlərin saxlanılması durur və əlbəttə, əməkdaşlıq qurulması üçün təlabat və əməkdaşların fəaliyyəti bir-birini məlumatlandıraraq həyata keçirməsi vacibdir. Beləliklə, təlim prosesində xüsusi atmosfer yaranır ki, burada təlim subyektləri bir-biri ilə qarşılıqlı əlaqədə olur. Bu

fəaliyyət priomlarının hesabına deyil, subyektlərin bir-birinə istiqamətlənmiş olmalarının nəticəsidir.

Qeyd etmək lazımdır ki, təlim prosesindəki müəllim və şagird arasında münasibətlərin necə qurulacağı ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir. İlk növbədə indiyədək formalaşmış olan müəllim-şagird münasibətlərinin tipləri ilə tanış olaq. Onlar şərti olaraq 4 tipə bölünür.

*Birinci tip- "müəllim-şagird"* yüzilliklər ərzində təlim prosesinin aparıcı didaktik modeli olmuşdur. Bu model müəllim və şagird arasındakı bilavasitə əlaqəyə əsaslanır. Belə pedaqoji qarşılıqlı təsirin "prototipi" ana və uşaq arasındakı münasibətlərdir. Didaktik müəllim-şagird münasibətləri praktikada müxtəlif tədris formaları və metodları ilə müşayiət olunur. Burada aktuallaşan münasibətlərə : mentor (mürəbbi) və şagird; " evdə məktəb" müəllimi və şagird; tədrisin müxtəlif sahələrində ustad və şagird; xüsusi qayğıya ehtiyacı olan uşağa bərpaedici-pedaqoji, korreksiyaedici və tibbi proqram kontekstində fərdi olaraq tədrisin aparılması aiddir.

Müasir şəraitdə bu model müxtəlif forma və variantlarda müəllim və şagird arasında fərdi-didaktik əlaqə, yaradıcılığa və müstəqilliyə stimullaşdıran iş, fərdi olaraq təlim problemlərinin müzakirəsi və konsultasiyası kimi işlənir. Bu tip pedaqoji qarşılıqlı münasibətlərin ikilik (cüt) şəklində dominantlığı xarakterikdir (Kralin, 1998).

*İkinci tip- "müəllim –auditoriya "*–bu, böyük sayda insan kütləsinə nəsihət vermə, təviqat, mobilizasiya, maariflənmə məqsədi daşıyan dialoji formada müraciətdir. Auditoriya ilə ünsiyyətin əsas formaları çıxış, təbliğ, məruzə, mühazirədir. Burada materialın və yeni informasiyanın rasional və "ekonomik" təqdim olunması əsas rol oynayır. Bu tip təlim ali məktəb üçün səciyyəvidir.

*Üçüncü tipə- "müəllim-qrup"* – münasibətləri aiddir. Bu tip üçün vasitəsiz kommunikasiya xarakterikdir. Həmçinin kommunikiasiyanın çoxtərəfli və qarşılıqlı münasibətlərin qabarıq əməkdaşlıq xüsusiyyətinə malik olması ilə seçilir.

*Dördüncü tip üçün –"müəllim-təlim vasitəsi-şagird "*- distant təlim xarakterikdir. Burada təlim kompyuter və digər texniki vasitələrlə həyata keçirilir. Çagirdlər tərəfindən təcrübənin mənimsənilməsi şəxsi münasibətlər xaricində mümkün deyil. Məhz münasibətlər çərçivəsində şagird müəllimin qiymətləndirilməsini başa düşür. Həm də şagird özü də müəllimi qiymətləndirir. Müəllimə münasibət şagirdin uğurunu şərtləndirir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdin bikiklərə yiyələnmək istəyini artırır, fəaliyyətə və əməkdaşlığa marağı gücləndirir.

Belə qarşılıqlı proses olmasa, şəxsiyyətin formalaşması baş verməz. Həmşini bu zaman müəllim nəyin korreksiyaya ehtiyaci olduğunu, mənimsənildiyini və özünün nəyə əsaslanacağını müəyyənləşdirə bilir. Bu mənimsəmə prosesləri öz- özünə baş vermir. Formalaşan şagird şəxsiyyəti müəllimin dəstəyi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın vacibliyini öyrənir.

Şagirdin bütün şəxsi keyfiyyətlərinin nəzərə alınması çox əsasdır. Bu, təlimin tempini və keyfiyyətini dəyişməyə imkan verən şərt kimi çıxış edir. Müəllimlə şagirdin əməkdaşlığı təkcə tədris metod və vasitələrinin tətbiqindən ibarət deyil. Burada mənəvi əlaqə olmalıdır. Müəllim ötürdüyünün şagird tərəfindən qəbul edilməsinə, özününküləşdirməsinə şərait yaratmalıdır. Bu mənəvi əlaqə emosional,qiymətləndirici və iradi xarakter daşıyır (Mehrabov, Abbasov, Zeynalov, Həsənov, 2006).

Təlimdə keyfiyətin əldə olunması üçün əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən "müəllim-şagird" münasibətlərinin qurulmasında pedaqoji faktı- nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlarq münasibətdə ədəblə davranmalıdır.

Təhsil islahatlarının tələblərinin yerinə yetirilməsində, ilk növbədə, müəllim özü dəyişməli, təlimin yeni texnologiyalarını bilməli, yeni proqram və dərsliklərdən, fənn kurikulumun tələblərindən irəli gələn dəyişiklikləri tətbiq etməyi bacarmalıdır.

Yeni metodlardan istifadə zamanı müəllim şagirdlərin idraki fəallığına, müstəqil düşünmə qabiliyyətinin inkişafına nail olur. İş prosesində müəllim-şagird münasibətlərinin düzgün qurulması,

şagirdlərin təhsilə marağının artmasında, tədris etdiyi fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Müəllim - şagird münasibətləri tədris prosesinin əsas komponentlərindəndir. Tədris prosesində müəllimin şagirdlərlə ünsiyyəti, onlara yanaşma tərzi, rəftarı həlledici rol oynayır. Hər bir müəllim öz dərsində nəaliyyət qazanmalı, səmimi ünsiyyət yaranmasına nail olmalıdır (Mərdanov, Ağamalıyev, Mehrabov, Qardaşov, 2003).

Təhsil sisteminin yaxşı qurulması üçün müəllim-şagird münasibətləri tənzimlənməlidir. Təhsil sistemi dünyada yarandığı vaxtdan müəllim-şagird münasibətləri də mövcud olmuşdur. Zaman keçdikcə bu münasibətlər formalaşmış, yeni mahiyyət kəsb etmişdir. Artıq elə bir dövrə gəlib çatmışıq ki, müəllim-şagird münasibətlərində subyekt münasibətləri tələb olunur (Polat, 2000).

Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır ki, müəllim şagirdə sevgi, məhəbbətlə və eyni zamanda ciddi yanaşsın. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməlidir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji metodlarından istifadə edib, xoş, isti münasibət yaratmalıdır (Mehrabov, 2005).

## Nəticə

Bu məqalə təhsilin keyfiyyətinin artırılmasında informasiya və kommunikasiya texnologiyalarından istifadənin yalnız bəzi məsələlərinə toxunuldu. Əlbəttə, burada təhsillə bağlı sosial servislərdən, internetin verdiyi texniki imkanlardan daha geniş danışmaq olardı. Bu imkanlar isə nəinki ildən-ilə, hətta gündən-günə artır.

## Ədəbiyyat

1. Mehrabov, A. (2001). Təhsilin demokratikləşməsi: problemlər, vəzifələr. Təhsil, mədəniyyət və incəsənət. Bakı. № 4.
2. Kralin, M. (1998). Tekhnologicheskiye osnovy proyektirovaniya i konstruirovaniya uchebnogo protsessa . Volgograd.
3. Bayramov, Ə. (1990). İstedadlıların aşkar edilməsi və təlim-tərbiyyə sisteminin təşkili elmi zəmində qurulmalıdır. Azərbaycan müəllimi. 27.04.1990 №31, 29.04.1990, № 32.
4. Əlizadə, Ə. (2005). İstedadlı uşaqlar. Pedaqoji məsələlər: esselər, etüdlər. Bakı, ADPU nəşriyyatı.
5. Kərimov, Y. (2007). Təlim metodları. Bakı. RS poliqraf.
6. Kərimov, F., Əhmədova, M., Varella, G., Reyli, Ə. (2005). İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı: Adiloğlu.
7. Mehrabov, A., Abbasov, Ə., Zeynalov, Z., Həsənov, R. (2006). Pedoqoji texnologiyalar. Bakı: Mütərcim.
8. Mərdanov, M., Ağamalıyev, R., Mehrabov, A., Qardaşov, T. (2003). Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu.
9. Polat, Ye. (2000). Novyye pedagogicheskiye i informatsionnyye tekhnologii v sisteme obrazovaniya. M. «Akademiya».
10. Mehrabov, A. (2005). Təlim prosesində konstruktiv öyrənmə modeli, idraki və sosial münasibətlərin formalaşma xüsusiyyətləri. Azərbaycan məktəbi. №3

Göndərilib: 06.01.2023 Qəbul edilib: 25.02.2023

DOI: https://doi.org/10.36719/2706-6185/21/57-60

**Nəriman İsmayılov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
nriman.ismayilov@mail.ru

# QUYULARIN İNŞASI ZAMANI RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Müasir dünyamızı risklər olmadan təsəvvür etmək qeyri-mümkündür. İstənilən sahədə risklərin mövcud olması və müasir texnologiyaların dinamik inkişafı öz bərabərində riskləri daha da diqqət mərkəzində saxlamağa məcbur edir.

Məqalədə insan tələfatı ilə nəticələnə bilən risklərdən biri olan quyuların inşası zamanı yaranan risklər, onların qiymətləndirilməsi, insanlara və maddi resurslara dəyə biləcək zərərlərin minimuma endirilməsi üçün görülən tədbirlər sistemindən bəhs edilir.

Məqalədə həmçinin, risklərin idarə olunması və idarəetmədə müasir elmi metodların tətbiqi imkanlarına yer verilir.

***Açar sözlər:*** *risk, müasir texnologiyalar, quyuların inşası, risklərin idarə olunması, tədbirlər sistemi, zərərlər*

**Nariman Ismayilov**
Azerbaijan State Oil and Industry University
master student
nriman.ismayilov@mail.ru

## Risk assessment during the construction of wells

**Abstract**

It is impossible to imagine our modern world without risks. The presence of risks in any field and the dynamic development of modern technologies force us to focus on risks even more.

The article discussed the risks arising during the construction of wells, which are one of the risks that can result in human casualties, their evaluation, and the system of measures taken to minimize the damage to people and material resources.

The article also mentions the possibilities of applying modern scientific methods in risk management and management.

***Keywords:*** *risk, modern technologies, construction of wells, risk management, measures system, damages*

## Giriş

Müasir cəmiyyətimizdə insanlar hər an düşünülmüş və yaxud, düşünülməmiş formada müəyyən risklərlə üzləşirlər. Qarşılaşdığımız risklərin bizlərə və ətraf mühitimizə vura biləcəyi zərərlərin qarşısının alınması və bu risklərin baş vermə ehtimalının maksimum dərəcədə minimallaşdırılması müasir alimlərin qarşısında duran ən aktual problemlərdən biridir.

Risklərin idarə olunması istənilən riskli hadisələrin ortaya çıxmasını əvvəlcədən müəyyən elmi metodların köməyi ilə proqnozlaşdırmaq və riskli hadisənin təsiri nəticəsində yaranan mənfi nəticələrin istisna edilməsinə və ya maksimum dərəcədə azaldılmasına imkan verən tədbirlər sistemi kimi başa düşülməlidir.

Risklərin idarə olunması çox mərhələli prosesdir (Zeynalov, 2002: 228). İlk mərhələ riskin aşkarlanması mərhələsidir. Risklərin aşkarlanması müəssisədə zərərlərə və digər itkilərə, həmçinin, insanların ölümünə, xəstəliyə və yaralanmaya səbəb ola biləcək amillərin əvvəlcədən müəyyən edilməsi və qiymətləndirilməsinə şərait yaradır.

Sonrakı mərhələdə risklərin qiymətləndirilməsi həyata keçirilir. Risk aşkarlanır daha sonra təhlükəli mənbələrin, riskin həcmini proqnozlaşdırmaq və mövcud olan nəzarət tədbirlərinin yetərli olub olmamasını gözönünə alaraq buraxılabilən riskin qəbul ediləbilən olmasını müəyyənləşdirmək üçün olan bir prosesdir. Risklərin qiymətləndirilməsi bizə imkan verir ki, qiymətləndirilmiş risklərə nəzarət tədbirləti həyata keçirilsin. Nəzarət tədbirləri-risklərin aradan qaldırılmasının ən vacib prinsipi sayılır (Quliyev, 2015).

Qaz və neft quyularının istismar üçün qazılması zamanı müəyyən risklər meydana çıxır. Bu risklərə qəza risklərini, ekoloji riskləri, tutulma risklərini, mürəkkəbləşmələri, quyuların uçması riskini, kənar təsirlərin yaratdığı riskləri, kimyəvi birləşmələrin yaratdığı riskləri və yangın riskini göstərmək olar.

Qazmada baş verəcək qəzaların əvvəlcədən müəyyən edilməsi, qəza xəbərdarlığının edilməsi, qəzaların qarşısının alınması və eləcə də başqa səbəblərdən əmələ gələn qəzaların tez bir zamanda səmərəli üsullar tətbiq etməklə qəzanın ləğv edilməsi vacib əhəmiyyət kəs edir.

Qazma prosesi zamanı yaranan qəza risklərinin xarakterik xüsusiyyətləri vardır. Qəza zamanı yaranan risklər ümumi formada xarakterizə olunmaqla aşağıdakı kimi növlərə ayrılır:

- Qazma kəmərinin hər hansısa bir hissədən sınması ilə baş verən qəzalar;
- Qazma alətlərinin tutulması nəticəsində baş verən qəzalar;
- Quyunun dibində olan mühərriklərlə əlaqədar yaranan qəzalar;
- Qazma baltalarının korlanması səbəbindən yaranan qəzalar;
- Sementləmə zamanı sementləmənin keyfiyyətsiz olması və texnoloji reqlamentə düzgün əməl edilməməsi;
- Yad cisimlərin qazılmaqda olan quyuya düşməsi nəticəsində baş verən qəza riskləri
- Qoruyucu kəmərlərin yoxlanılmaması və digər qoruyucu kəmərlərlə əlaqədar olan qəzalar.

Araşdırmalarla sübut olunmuşdur ki, əsasən qəzalarla nəticələnən qazma kəməri elementlərinin sınması, prosesdə nəzərdə tutulan əsas boru materialının texniki olaraq "yorulmasından" baş verir. "Yorulma" hadisəsi müvəqqəti gərginlikdən əmələ gəlir və bu gərginliyi yaradan isə qazma kəmərinin titrəməsi, bəzi yerlərdə sərt əyilmələr və burucu zərbələrdir (Galeyev, 2017: 152).

Qaynaqlı birləşmə ucları olan borulardan istifadə edərkən əksər hallarda sınma halı həmin qaynaq birləşmələrində özünü göstərir.

Qazma kəmərlərinin yiv birləşməsindən sınması hallarına da praktikada kifayət qədər rast gəlinir. Yiv birləşmələrindən sınmanın əsas səbəbləri yivlərin lazımi dərəcədə bərk bağlanmaması, tez-tez müəyyən gərginlik altında açılıb-bağlanması və s. səbəbləri göstərmək olar. Bu tip risklərin qarşısını almaq üçün qazma kəməri və onun işçi elementlərini əvvəlcədən müəyyən olunmuş qrafikə uyğun olaraq "defektoskopiya" aparatı ilə yoxlamalıyıq (Salavatov, 2012). Vaxtaşırı olaraq 200-400 saat arasında qazma borularının yiv birləşmələrinin işləmə dərəcəsi yoxlanılmalıdır. Tutulmuş aləti azad etmək üçün buraxıla bilən həddən artıq miqdarda fırlanma momenti və dartıcı güc vermək olmaz.

Kəmərin tutulması quyu lüləsində olan qazma məhlulu sütununun təzyiqinin düşməsi nəticəsində burunun quyu divarına yapışması quyu lüləsinin daralan hissələrində və ya kənar cisimlərin düşməsindən pərçimlənməsi, quyu divarının uçması və gil tıxaclarının əmələ gəlməsi səbəbindən kəmərin hərəkətdən qalmasına deyilir. Maraqlı cəhət ondan ibarətdir ki, qazma alətinin tutulması prosesini həm mürəkkəbləşməyə, həm də qəza riskinə aid misal kimi göstərmək olar (Kleinfeld, Feiner, 1996: 358-364). Müəyyən edilmişdir ki, tutulmaların yarıdan çoxu əsasən qazma alətlərinin hərəkətsiz saxlanılması səbəbindən yaranmışdır.

Quyudibində olan mühərriklərlə əlaqədar qəza risklərinin olması danılmaz faktlardan biridir. Mühərriklərin və yaxud, onun hissələrinin müəyyən səbəblərdən tutularaq quyuda qalması səbəbindən qəzalar baş verə bilər. Burada turboburla əlaqədar qəza əmələ gəlmə səbəblərinə keçiricilərin yiv birləşmələrindən qopması, rotorun qaykası və turbobur valının kontur qaykalarının açılması, həmçinin, turboburun gövdəsinin pərçimlənməsi səbəb kimi göstərilə bilər (Zeynalov, 2015: 406). Buna görə də risklərin baş verməsini minimuma endirmək məqsədi ilə turbaburun

ölçüsünü və tipini düzgün seçmək vacibdir. Quyudan istifadə etməmişdən əvvəl bütün yiv birləşmələri yoxlanılmalıdır.

Praktikadan məlum olur ki, qazma baltalarının və qazma başlıqlarının, həmçinin, onların elementlərinin və müxtəlif hissələrinin texniki və texnoloji səbəblərdən sınması və tutulması zamanı qəza riskləri yarana bilər (Zeynalov, 2013: 284). Bu tip qəzaların tədqiqi göstərir ki, qəzaların baş vermə səbəbləri baltaların tipindən də asılıdır. Məsələn, şaroşkalı baltalarda baş verən qəzalar baltanın bağlanması qaydasına düzgün əməl etmədikdə yaranır.

Baltaların sınmasına səbəb olan digər amil isə onların normadan artıq istifadə edilməsi, baltanın quyunun dibinə çox yüksək zərbə ilə vurulması, istifadə zamanı suxurların möhkəmliyinin nəzərə alınmaması və ən əsası isə qaynaq tikişlərinin zəif olmasıdır.

Baltaların PDS adlanan tipindən də quyuların qazılması zamanı geniş istifadə olunur (Thanh, Hsieh, 1990: 119-132). Bu tipli baltalarla qəza riski əsasən qazma zamanı və endirmə-qaldırma vaxtı baltanın pərçimlənməsi və açılması səbəbindən baş verir.

Qoruyucu kəmərlərlə əlaqəli olaraq yaranan qəza riskləri əsasən quyunun divarlarının möhkəmləndirilməsi zamanı qoruyucu kəmərlərin tutulması, həmçinin bir və yaxud birdən çox qazma borusunun açılması nəticəsində quyuya düşməsi, boruların deşilməsi, yiv birləşmələri olan yerdən sınması, qoruyucu kəmərin elementlərinin düzgün yığılmaması ilə əlaqədar səbəblərdən baş verməsi riski yüksəkdir.

Bu kəmərlərin tutulmasının səbəblərinə quyunun lazımi səviyyədə hazırlanmaması, quyuda sərt döngələrin olması və ən əsası isə quyunun inşası planının düzgün tərtib edilməməsi və yaxud plana əməl edilməməsini göstərə bilərik. Qoruyucu kəmərin düşməsi endirmə-qaldırma alətlərinin nasazlığı, hesabatlarda əldə olunmuş məlumatlara əməl olunmaması, kəmərin quyu divarına qəflətən ilişməsi, borular birləşdirilərkən onların bir-birinə keyfiyyətli və tam olaraq birləşdirilməməsi və s. səbəbləri əsas göstərə bilərik (Salavatov, Şirinov, Səmədov, 2017).

Qoruyucu kəməri təşkil edən boruların əzilməsi səbəblərinə isə borunu əks klapanla buraxdıqda zamanında məhlulla doldurulmaması və sürətlə buraxdıqda hidrodinamik zərbələrin təsiri boruların əzilməsinə səbəb olur.

Bilməli olduğumuz digər məqam isə keyfiyyətsiz sementləmə nəticəsində boru divarlarının uçması səbəbindən qazma zamanı yaranan problemlərdir. Bu riskli situasiyanın baş verməməsi üçün quyuda istifadə olunacaq sement nümunələri laboratoriya şəraitində təyinedici aparatlarda yoxlanılmalıdır. Burada əsas diqqət edilməli məqam isə sement nümunəsinin başlanğıc və son tutuşma məqamının düzgün müəyyən edilməsidir. Sementləmə prosesinə düzgün nəzarət edilmədikdə və prosesin idarə edilməsi planı pozulduqda qazılan quyularda uçulma sökülmə hadisələri baş verir. Belə olduqda isə quyu tikintisi zamanı xərclənən milyonlarla manat dəyərində məbləğ itirilmiş olur. Bu isə tikintini həyata keçirən müəssisələr üçün xoşagəlməz nəticələr verir.

## Nəticə

Ola biləcək hadisələrin risklərinin qiymətləndirilməsi müəssisələrin və təşkilatların birinci vəzifəsi olmalıdır. Müvafiq olaraq risklərin qiymətləndirilməsi aparıldıqdan sonra müəssisədə ola biləcək risklərin siyahısı tərtib olunmalıdır. Risklər siyahısından istifadə etməklə obyektdə olan ən zəruri risklərin idarə olunması və qalıq riskin aradan qaldırılması üçün tədbirlər planı hazırlanmalıdır.

Qiymətləndirilmiş risklərlə əlaqədar olaraq görüləcək profilaktiki tədbirləri müzakirə edilməlidir. Risklərin ortaya çıxma ehtimalının qarşısının alınması (minimuma endirilməsi) və verə biləcəyi zərərin potensial təsir dairəsinin azaldılması ya da təhlükənin hər hansısa bir yolla transfer edilməsinin elmi-praktiki təhlili aparılmalıdır.

Risklərin idarə olunmasının strategiyasına uyğun olaraq hər bir konkret risk üçün tədbirlər sistemi müəyyən edilməli və icra olunmalıdır.

Riskin öncədən aşkarlanması, qiymətləndirməsi və həmçinin, nəzarət tədbirlərinin ardından qalıq riski ortadan qaldırmağa və yaxud, nəticələrini minimallaşdırmağa (azaltmağa) doğru görülən

tədbirlərin ,vaxtında və dəqiq yerinə yetirilməsinin izlənməsi üçün əvvəlcədən monitorinqlər həyata keçirilməlidir.

Həmçinin, texnoloji proseslərin yenilənməsi, avadanlıqların və qurğuların köhnəlməsi, digər tərəfdən texnoloji qurğuların mürəkkəbləşməsi və s. səbəblərdən məlum olmayan və yaxud daha əvvəlki risk qiymətləndirilməsində nəzərə alınmayan yeni risk formaları yaranır. Yaranan bu yeni risklərin aşkar edilməsi üçün müntəzəm olaraq monitorinqlər həyata keçirilməlidir.

## Ədəbiyyat


1. Zeynalov, N. (2002). Povysheniye effektivnosti i kachestva tsementirovaniya neftyanykh i gazovykh skvazhin. Izd. «Takhsil». Baku, 228 s.
2. Quliyev, İ. (2015). Neft və qaz quyularının qazılması zamanı baş verən mürəkkəbləşmələrin erkən aşkar edilməsi və onlarla mübarizə texnologiyasının təkmilləşdirilməsi. Bakı.
3. Galeyev, A. (2017). Analiz riska avariy na opasnykh proievodstvennykh ob"yektakh: uchebnoye posobiye. Rossii, Kazan. nach. issled. tekhnol. un-t. Kazan': Izd-vo KNITU, 152 s.
4. Salavatov, T., İsmayılov, F., Osmanov, B. (2012). Neftin quyu ilə çıxarılması texnologiyası. Dərslik. Bakı, 530 s.
5. Kleinfeld, M. Feiner, B. (1996). Health hazards associated with work in confined spaces. J.Occup. Surroundings. Med., p.358-364.
6. Zeynalov, N. (2015). Neft-qaz quyularının qazılması və istismarının təhlükəsizliyi. Bakı, ADNA-nın nəşri, 406 s.
7. Zeynalov, N. (2013). Neft-qaz quyularının qazılmasında texniki təhlükəsizlik. Bakı, “Elm” nəşriyyatı, 284 s.
8. Thanh, N., Hsieh, M., Philp, R. (1990). Waxes and asphaltenes in crude oils. Org. Geochemistry. 30, p.119-132 (Google Scholar). (CrossRef).
9. Salavatov, T., Şirinov, M., Səmədov, V. (2017). Maili və üfiqi quyuların qazılması texnika və texnologiyası. Bakı.


Göndərilib: 16.01.2023 Qəbul edilib: 18.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/21/61-65

**Vəfa Bağırova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
vefa98b@gmail.com

# YERLİ İDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARI – VƏTƏNDAŞLARI, İDARƏETMƏ FƏALİYYƏTİNİ VƏ YENİ İDEYALARI BİRLƏŞDİRƏN İNNOVATİV MÜHİT

**Xülasə**

Məqalədə informasiya texnologiyalarının inkişafı ilə əlaqədar yerli idarəetmə sisteminin müasirləşdirilməsi məsələlərindən bəhs edilir. Müəllif tərəfindən yerli hakimiyyət orqanlarının işinə tətbiq olunan mexanizmlərin siyahısı ayrılmışdır: elektron sənəd dövriyyəsi sistemi, sosial şəbəkələrdə vətəndaşların müraciətləri ilə işləmək üçün səlahiyyətli sistem "İnsidentlərin idarə edilməsi", məsafədən qəbul elementlərinin istifadəsi, vətəndaşların müraciətlərinin qəbulu, çoxfunksiyalı mərkəzlər vasitəsilə bələdiyyə xidmətlərinin göstərilməsi. Tədqiqat çərçivəsində informasiyalaşdırmanın artırılması kontekstində yerli özünüidarəetmə orqanlarının işinin təkmilləşdirilməsi istiqamətləri formalaşdırılmış və əsaslandırılmışdır.

***Açar sözlər:*** *dövlət idarəçiliyi, yerli və bələdiyyə orqanları, informasiyalaşdırma, informasiya texnologiyaları, yerli idarəetmə savadlılığı*

**Vafa Bagirova**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
vefa98b@gmail.com

## Information technologies in the activity of local government bodies - an innovative environment combining citizens, government activity and new ideas

**Abstract**

The article deals with the issues of modernization of the local administration system related to the development of information technologies. The author lists the mechanisms applied to the work of local authorities: the electronic document circulation system, the authorized system for working with citizens' appeals on social networks "Incident Management", the use of remote reception elements, the reception of citizens' appeals, the provision of municipal services through multifunctional centers, etc. Within the framework of the study, the directions for improving the work of local self-government bodies in the context of increasing informatization were formed and justified.

***Keywords:*** *public administration, local and municipal bodies, informatization, information technologies, local administration literacy*

## Giriş

Yerli özünüidarəetmə bir çox dünya dövlətlərində xalqın dövlət Konstitusiyası ilə təmin edilmiş hüquq və səlahiyyətlərin həyata keçirilməsi formalarından biridir. O, əhalinin mənafeyini, tarixi və digər yerli ənənələri nəzərə almaqla, yerli əhəmiyyətli problemlərin müstəqil yaxud öz məsuliyyəti ilə həm bilavasitə, həm də nümayəndəlik orqanları vasitəsilə həllini özündə ehtiva edir. Bildiyimiz kimi müasir dünyada qlobal səviyyədə bütün cəmiyyətin informasiyalaşdırılması prosesi gedir. Bu, dövlət və bələdiyyə idarəetməsi sahəsində informasiya texnologiyalarından istifadənin zəruriliyini təsdiqləyir.

İnformasiya texnologiyalarından istifadə dövlət idarəetməsi və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin səmərəliliyini artırmağa imkan verir. Axı, yerli özünüidarə idarəetmənin

daha yüksək səviyyələrində idarəetmə qərarlarının qəbulu üçün əsasdır, çünki həyati ehtiyacların təmin edilməsi ilə bağlı məsələləri həll edən bələdiyyə orqanlarıdır. Bu baxımdan dövlət və bələdiyyə işçilərinin müasir informasiya texnologiyalarından səmərəli istifadəsinə dair konkret tövsiyələrin hazırlanması məsələsi aktualdır. İnformasiya texnologiyalarından istifadə etməklə həyata keçirilən həmin vəzifələrin dəqiq təsnifatının aparılmasına da ehtiyac vardır (Okutina, 2021: 269).

Aydındır ki, informasiya məkanının inkişafında yaranan tendensiya dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının inhisarçılığının qarşısını almağa kömək edir. Bu, bir tərəfdən konkret podratçının mümkün korrupsiya təzahürünü istisna edir, digər tərəfdən isə idarəetmə subyektlərinin dairəsinin genişləndirilməsini və hüquqi xarakterli məlumatlar da daxil olmaqla, informasiyaya çıxışın optimallaşdırılmasına zəmin yaradır.

Yerli idarəetmə orqanlarının fəaliyyətinə müasir informasiya texnologiyalarının tətbiqi bunlarla əlaqələndirilir:

1) müasir cəmiyyətdə situasiyanın dəyişmə dinamikasının artması;
2) ərazilərin həyatının təmin edilməsində xeyli sayda amillərin və məhdudiyyətlərin nəzərə alınması zərurəti;
3) toplanması və kifayət qədər heterojen məlumatların böyük həcmdə emal ehtiyacı (Lavrenko, 2019: 787).

Ümumiyyətlə, idarəetmənin informasiyalaşdırılması bütün səviyyələrdə hakimiyyət orqanlarının, təşkilatların, şirkətlərin və onlarla qarşılıqlı əlaqədə olan vətəndaşların informasiya ehtiyaclarını ödəmək üçün informasiya mühitinin təşkili prosesidir. İnformasiya texnologiyalarının köməyi ilə yerli idarəetmə orqanının rəhbərliyi aşağıdakı vəzifələri həll edir:

1) problemli vəziyyətlərin təhlili, səbəb-nəticə əlaqələrinin tapılması;
2) həll edilməli olan problemlərin formalaşdırılması;
3) problemli vəziyyətlərin inkişafına təsir göstərə bilən xarici mühitin parametrlərinin proqnozlaşdırılması;
4) idarəetmə qərarlarının variantlarının nəticələrinin proqnozlaşdırılması;
5) problemli vəziyyətlərin həlli üçün alternativlərin hazırlanması;
6) verilmiş şərtləri və tapşırıqları qane edən optimal həll yolunun tapılması (Chistova, 2014: 214).

Bəzi tədqiqatçıların qənaətinə görə, informasiya-kommunikasiya və internet texnologiyalarının yerli idarəetmə orqanlarının fəaliyyətinə tətbiqi bir neçə mərhələdən keçməlidir. Birləşmiş Millətlər Təşkilatının İctimai İqtisadiyyat və İdarəetmə Bölməsi, həmçinin Amerika Dövlət İdarəçiliyi Cəmiyyətinin məlumatına görə, bu prosesdə beş əsas mərhələsini ayırmaq mümkündür:

*Birinci mərhələ* – internetdə mövcudluq (və ya məlumatların yerləşdirilməsi), yəni dövlət orqanlarının elektron şəbəkə strukturlarına buraxılması ilə bağlıdır. Bu mərhələdə dövlət qurumlarının informasiya rolunu yerinə yetirən bir və ya bir neçə saytı vardır. Bu saytlarda vətəndaşlara dövlət orqanının tərkibi, onun bölmələri, vəzifəli şəxsləri, ünvanları, telefon nömrələri, iş saatları və s. haqqında müfəssəl məlumat verilir. Dövlət orqanlarının səhifələri, bir qayda olaraq, mərkəzləşdirilmiş qaydada aparılmır və portalda birləşdirilmir.

*İkinci mərhələ* – qabaqcıl internetdə mövcudluq (və ya əks əlaqə) – istifadəçilərə müxtəlif dövlət saytları vasitəsilə ixtisaslaşmış və daim yenilənən məlumatları almağa imkan verir. Burada dövlət nəşrləri, hüquqi sənədlər, xəbərlər haqqında məlumat almaq imkanı vardır. Şəbəkədə dövlət qurumlarının sayı artır.

*Üçüncü mərhələ* – interaktiv internet mövcudluğu – vətəndaşlar və dövlət xidmətləri göstərən dövlət strukturları arasında qarşılıqlı əlaqə imkanlarının intensivləşməsi ilə xarakterizə olunur. Milli hökumətin veb-saytı istifadəçini birbaşa nazirliklər, agentliklər və idarələrlə əlaqələndirən portal kimi fəaliyyət göstərir. Vətəndaşlarla xidmət təminatçıları arasında qarşılıqlı əlaqə şəbəkə istifadəçilərinə onların ehtiyac və maraqlarına uyğun olan məlumatlara birbaşa çıxış imkanı verir.

*Dördüncü mərhələ* – tranzaksiya əsaslı veb mövcudluq, yəni buraya istifadəçinin şəbəkə vasitəsilə sənədləri qəbul etmək və əməliyyatları həyata keçirmək imkanı daxildir. Vətəndaşlar vizalar, pasportlar,

sertifikatlar, icazələr və digər əməliyyat xidmətləri ala bilərlər. Regional portallar vasitəsilə müəssisələri qeydiyyata almaq, maliyyə sənədlərini tərtib etmək, xarici sənədləri leqallaşdırmaq və s.

*Beşinci mərhələ* tam inteqrasiya olunmuş internet mövcudluğudur. O, həm vətəndaşlar, həm də biznes üçün vahid standartlara əsaslanan dövlət idarəetməsinin elektron sisteminin, eləcə də bütün xidmətlərə vahid çıxış nöqtəsi kimi hökumət portalının yaradılmasını təmin edir. Dövlət qurumları arasında sərhədlər çox çevikdir ki, bu da onların fəaliyyətinin təşkilinin yeni keyfiyyətindən danışmağa imkan yaradır (Antanovich).

Yerli idarəetmə orqanlarının problemlərinin həllində və müzakirəsində əhalinin iştirakını artırmaq üçün aşağıdakı funksional xidmət növlərindən istifadə əsasında xarici ölkələrin iri meqapolislərin təcrübəsinin uyğunlaşdırılması məqsədəuyğundur:

*1) informasiya xidmətləri* – vətəndaşları şəhər haqqında lazımi məlumatlarla təmin etmək, bələdiyyənin müxtəlif şöbələri ilə digər məlumat provayderləri, habelə onların istehlakçılarının müxtəlif qrupları arasında - şəhər ictimaiyyətindən tutmuş biznes və tədqiqatçılara qədər informasiya mübadiləsinin qurulması məqsədinə xidmət edir;

*2) elektron xidmətlər portalı* – vətəndaşlara dövlət qurumlarında fiziki iştirak olmadan veb-interfeys və ya mobil proqram vasitəsilə sorğular göndərmək (məsələn, nikahın qeydiyyata alınması və ya uşağı uşaq bağçasına yazdırmaq), onlara baxılma vəziyyətini izləmək və dövlət xidmətlərini birbaşa almaq imkanı verən onlayn dövlət xidmətləri sisteminin əsas elementidir.

*3) Kommunikasiya xidmətləri.* Ən çox yayılmış formatlardan biri sakinlərə bələdiyyə xidmətlərinin işinə nəzarət etməyə imkan verən interaktiv platformalardır: problemlər barədə məlumat vermək və şikayətlərə gələn cavabı izləmək. Ən effektlisi krausorsinq, yəni ictimaiyyətdən rəy, ideya və təkliflərin toplanması üçün interaktiv platformalar hesab olunur.

*4)* Vətəndaşların elektron sorğuları və referendumları üçün platformalar. Onlar müxtəlif inkişaf məsələləri üzrə ictimai rəyin rəsmi şəkildə toplanması üçün interaktiv xidmətlərdir. Bələdiyyə rəhbərliyi müzakirə və ya sorğu üçün gündəliyi/rəhbəri müəyyən edir və əhali səs verməyə və suallara cavab verməyə dəvət olunur (Ageev, 2018: 45).

Geniş mənada elektron bələdiyyə dedikdə, bütün ərazi üzrə idarəetmə və inzibati proseslərin avtomatlaşdırılmasına əsaslanan yerli özünüidarənin şəbəkə informasiya-kommunikasiya infrastrukturu başa düşülməlidir. Mütəxəssislərin fikrincə, elektron bələdiyyə və ya digər yerli idarəetmə orqanları e-hökumət elementlərinin iyerarxiyasında aşağı səviyyə kimi təmsil oluna bilər:

- e-hökumət;
- elektron idarəetmə (yerli icra hakimiyyəti orqanları);
- regional elektron hökumət;
- elektron bələdiyyə və yaxud digər yerli idarəetmə orqanları (Kalilina, Şevandrin).

Elektron bələdiyyənin üstünlüklərinə nail olmaq üçün aşağıdakı prinsiplərin həyata keçirilməsini təmin etmək lazımdır:

- vətəndaşlarla elektron məlumat mübadiləsinin təmin edilməsi (açıq normativ hüquqi baza, elektron xidmət portalları, internet qəbulları);
- vətəndaşlar və idarələr arasında, habelə idarələrin özləri arasında elektron məlumat mübadiləsindən istifadə etməklə dövlət xidmətlərinin göstərilməsində "bir pəncərə" prinsipi;
- sənəd dövriyyəsi üçün kağız texnologiyasından istifadədən imtina (bələdiyyə daxilində, habelə idarələr və hökumət səviyyələri arasında);
- vəzifəli şəxslərin işində elektron texnologiyalardan istifadə (məlumat bazaları, informasiya və analitik proqramlar, geoinformasiya sistemləri) (Kalilina, Şevandrin).

Böyük, orta və kiçik şəhərlərdə elektron idarəetmənin yaradılması yerli orqanların daxili və xarici əlaqələrinin İKT-dən istifadə əsasında transformasiyasını nəzərdə tutur. Prosesin yekun məqsədi şəhər hakimiyyət orqanları ilə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqənin təşkilinin yeni forması kimi elektron bələdiyyənin yaradılmasıdır. "Elektron bələdiyyə"nin əsas elementi bələdiyyə xidmətlərinin vətəndaşlara və təşkilatlara internet vasitəsilə elektron formada təqdim edilməsinin mümkünlüyüdür (Koshechkin, 2017).

Regionların səmərəliliyinin, vətəndaşlara xidmətlərin göstərilməsi proseslərinin müasir informasiya texnologiyalarından istifadə ilə bilavasitə bağlı olması faktına əsaslanaraq, elektron hökumətin özünün effektivliyinin və İKT-yə investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi problemi həll edilir.

Problemi həll etmək üçün Avropa Birliyinin ən böyük layihələrindən biri – eGEP layihəsi (e-Hökumət İqtisadiyyatı Layihəsi – ingilis dilində *eGovernment Economics Project*) əsasında elektron hökumətin iqtisadi modeli qurulur.

Bu model özündə üç əsas istiqaməti ehtiva edir:

1) Avropa Birliyində elektron hökumət xidmətlərinin yaradılması, təmin edilməsi və saxlanması xərclərinin müəyyən edilməsi və təhlilini;

2) elektron dövlət xidmətlərinin səmərəliliyinin qiymətləndirilməsi metodologiyasının işlənib hazırlanmasını;

3) elektron dövlət xidmətlərinin tətbiqinin təsirlərinin təhlilini (Poselsky, Minat).

Uğurlu Qərb analoqlarının təhlili əsasında elektron hökumətin arxitekturasına, onun inkişaf prosesinə dair əsas tələblər formalaşdırılır, habelə digər dövlətlərin iri şəhərlərinin informasiyalaşdırılması üzrə regional layihələrin idarə edilməsi üçün hərtərəfli praktiki tövsiyələr təklif olunur. Dövlət funksiyasının, dövlət xidmətlərinin və inzibati reqlamentlərin formal tərifləri məsələlərinə xüsusi diqqət yetirilir.

## Nəticə

Müasir kommunikasiyaların nəzəriyyəsi və təcrübəsinin nəticələri yerli özünüidarənin həyata keçirilməsində ictimaiyyətin iştirakının yeni formasının – elektron iştirakın fəal inkişafı üçün obyektiv ilkin şərtlərin formalaşdığını göstərir. Onun səciyyəvi xüsusiyyəti məmurlarla yaxşı işləyən qarşılıqlı əlaqə ilə əhalinin problemlərinin həllini optimallaşdıran müasir qabaqcıl informasiya və rabitə xidmətlərindən vətəndaşların fəal istifadəsini əks etdirən texnoloji amildir. İnternetin və mobil əlavələrin mövcudluğu və yayılması əhalinin müəyyən bir məsələ ilə bağlı öz fikrini ifadə edən daha geniş əhatə dairəsini təmin edir, ictimai ehtiyacların və ictimai rəyin daha obyektiv mənzərəsini yaratmağa imkan verir.

Beləliklə, yerli idarəetmə orqanlarının informasiya sisteminin tətbiqi yerli özünüidarəetmə orqanları tərəfindən qəbul edilən idarəetmə qərarlarının səmərəliliyini və keyfiyyətini yüksəldəcək.

## Ədəbiyyat

1. Okutina, N. (2021). K voprosu ob ispolzovani informachionnix texnoloqiy v deyatelnosti orqanov qosudarstvennoy vlasti i mestnoqo samoupravleniya. Sovremenniye problemi, tendensii i perspektivi sosialno-ekonomicheskogo razvitiya. Sbornik statey X mejdunarodnoy nauchno-prakticheskoy konferensii. Surqut, p.268-27.1
2. Lavrenko, E., Torokhtiy, V. (2019). Improvement of information technology in local government. Economics and Society. № 4 (59), p.786-799.
3. Chistova, M. (2014). Munisipalnaya informasionnaya sistema – instrument povisheniya kachestva funktsionirovaniya organov mestnogo samoupravleniya. Teoreticheskiye i prakticheskiye aspekti sovremennoy nauki: sbornik nauchnikh trudov po materialam V Mejdunarodnoy nauchnoprakticheskoy konferensii. Chast V, Belgorod, 30 noyabrya, p.200-214.
4. Antanovich, N. Electronic government as a technology for the transition from public administration to effective public management. Science and Innovations [elektron resurs]
5. https://law.bsu.by/pub/11/ant3.pdf (son müraciət: 07.04.2023)
6. Ageev, A., Matveev, V., Simonov, S. (2018). Information systems in municipal management. OrelSIET bulletin. Mathematical and instrumental methods of economy. № 3 (45), p.42-46.
7. Kalilina, A., Şevandrin, A. Formirovaniya elementov elektronnoqo pravitelstva v orqanax mestnoqo samoupravleniya munichipalnix obrazovaniy [elektron resurs]
8. https://elibrary.ru/download/elibrary_18486285_21090371.pdf (son müraciət: 06.04.2023)

9. Koshechkin, S.. (2017). Razrabotka informachionnoy texnoloqii formirovaniya imica orqanov mestnoqo samoupravleniya. Magisterskaya dissertasiya po spesialnosti «Prikladnaya informatika». Krasnoyarsk, 82 p.
10. Poselsky, A., Minat, V. Theory and practice of the use of e-governmentand an electronic control system in the municipality of cities different scale [elektron resurs]
11. https://elibrary.ru/download/elibrary_24082208_90345437.pdf (son müraciət: 06.04.2023)

Göndərilib: 18.01.2023 Qəbul edilib: 13.03.2023

## İÇİNDƏKİLƏR

**Zarovshan Babayeva**
The relevance of the formation of the scientific-biological world view in the modern period ....6
**Khatira Suleymanova**
The essence of the pragmatic approach in linguistics ....14
**Nüşabə Seyid**
Təhsilin rəqəmsallaşdırılmasının faydaları və riskləri ....19
**Mahira Hajiyeva**
Interpretation of fiction. Phenomenology, hermeneutics and receptive esthetics ....24
**Vusala Aghabayli**
Early gender representations in english literature ....29
**Rashad Alimov**
Geological and structural setting of the Gadir low sulfidation epithermal deposit (Lesser Caucasus, Azerbaijan) ....35
**Təhminə Quluzadə**
Azərbaycanda müalicə turizminin mövcud vəziyyəti ....42
**Ayxan Zeynalov**
Milli iqtisadiyyatın formalaşmasında xarici investisiya qoyuluşlarının prioritet istiqamətləri ....47
**Ruzanə Süleymanova**
**Məlaikə Xudaverdiyeva**
Təhsilin keyfiyyətinin yüksəldilməsində interaktiv texnologiyaların rolu ....51
**Nəriman İsmayılov**
Quyuların inşası zamanı risklərin qiymətləndirilməsi ....57
**Vəfa Bağırova**
Yerli idarəetmə orqanlarının fəaliyyətində informasiya texnologiyaları – vətəndaşları, idarəetmə fəaliyyətini və yeni ideyaları birləşdirən innovativ mühit ....61

İmzalandı: 27.03.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 8.5 ç.v.
Sifariş: 626

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az